# Fəxri xiyaban – daha böyük izdiham...





**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından 19 il ötür. Hər il olduğu kimi, bu il də xalqımız ulu öndərin xatirəsini böyük hörmət və ehtiramla yad edir. Dünən, dekabrın 12-də unudulmaz dahi şəxsiyyətin növbəti anım günü hava tutqun və yağmurlu olsa da, ziyarətə gələnlərin ardı-arası kəsilmirdi.**

Milyonlarla azərbaycanlının qəlbində özünə taxt quran, bütün ömrünü Vətəninə, xalqına xidmətə həsr edən böyük azərbaycanlının məzarı həmişəkindən də çox gül çələnglərinə qərq olub. Ətrafda dahi rəhbəri yad etmək üçün axışan izdihamı müşahidə edirik. Ziyarətçilər ulu öndərə rəhmət oxuyur, onun Azərbaycan üçün etdiklərini minnətdarlıqla xatırlayır, məzarının qarşısına gül qoyaraq keçirlər. Fəxri xiyabana gələnlərin içində bütün təbəqələrdən olan insanlar var. Ziyalılar, sadə, zəhmətkeş vətəndaşlar, onun dövründə müxtəlif vəzifələrdə çalışmış təqaüdçü dövlət qulluqçuları, ehtiyatda olan zabitlər və digərlərini burada görmək mümkündür. Bir qədər öncə dövlət başçısı İlham Əliyev də Fəxri xiyabana gələrək xalqımızın ümummilli liderinin məzarını ziyarət edib.

Azərbaycan tarixinin görkəmli hökmdarlarından məqalə və kitablar yazan, Heydər Əliyev haqqında silsilə xatirələri maraqla oxunan, ulu öndərin hakimiyyətə qayıdışını ürəkdən dəstəkləyənlərdən biri, **tədqiqatçı Cahangir Hüseyin Əfşarı** da burada görürük. Həmişə olduğu kimi, ürəyi doludur:

– 1992-ci ildə mən Ağdaş rayonunda Polis İdarəsinin rəisi işləyirdim. Ölkədə xaos hökm sürürdü. Durumun getdikcə daha ağır vəziyyət alması Ali Sovetin deputatı kimi məni də ciddi narahat edirdi. Buna görə də ilk fürsətdə Ali Sovetin sessiyasında söz alıb çıxış etdim. Ölkədəki anarxiyanı, siyasi təbəddülatı izah etdim. Anlatdım ki, müstəqilliyimiz uçuruma gedir, qarşısını almalıyıq. Azərbaycanı



bu bəladan yalnız Heydər Əliyevin xilas edə biləcəyini vurğuladım. Mənim bu təklifim bəziləri tərəfindən ciddi etirazla qarşılandı. Hətta məni qınayanlar da oldu ki, sən niyə narahatsan, axı vəzifən var. Mən isə həqiqəti demişdim. Kimlərə xoş gəlməsə də. Hətta bu çıxışıma görə vəzifəmdən azad edildim. Allah ulu öndərə rəhmət eləsin. O, hər zaman bizim qəlbimizdə yaşayacaq.

Cahangir müəllimdən ayrılandan sonra kənara çəkilib müşahidələrimizə davam edirik. Həqiqətən, düşündürücü mənzərədir. Deyilənə görə, insan dünyasını dəyişəndən sonra tədricən unudulur. Amma bu fikir milyonların sevimlisi olmuş dahi şəxsiyyətə – ulu öndərə qətiyyən aid ola bilməz. Fəxri xiyabanda gördüklərimiz də bunu sübut edir. Heydər Əliyevi ziyarət edənlərin ardı-arası kəsilmir. Qədirbilən insanlar hər zaman burada olub, olacaq da. Xalqımız da qədirbiləndir – ömrünü xalqının yolunda şam kimi əridən bir şəxsiyyəti unutmamaqla bunu əyani sübut edir.

**Ziyarətçilərdən biri AMEA Mərkəzi Elmi Kitabxananın baş direktoru, professor Məmməd Əliyev bildirir ki, o, hər zaman ümummilli liderin pərəstişkarı olub. Xüsusən, onun ziyalılara qayğısı, müəllim-alim kontingentinə saf və qayğıkeş münasibətini hər zaman xatırlayır:**

– Yadımdadır, 2000-ci ildə biz ümummilli liderlə Bakı Slavyan Universitetində görüşə bildik. O zaman Rusiya Prezidenti Vladimir Putin də bu universitetə gəlmişdi və ona ali təhsil ocağının Fəxri doktoru titulu təqdim edilirdi. Çıxışı zamanı ulu öndər dedi ki, burada çalışan professor-müəllim heyəti Azərbaycan ziyalılarının qaymaqlarıdır. Onun bu fikirləri indi də həmin universitetdə hər kəsin görə biləcəyi lövhədə qeyd edilmişdir. Bu fikir bizi çox qürurlandırmışdı. Bu, onun müəllim peşəsinə verdi-



yi dəyəri sübut edirdi. Hələ sovet dövründə ulu öndərin təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin müxtəlif şəhərlərindəki ali məktəblərə oxumağa göndərilirdi. Yeni ixtisasların qazanılmasına nail olmaq, mütəxəssis yetişdirmək onun daim diqqət mərkəzində idi. Bir sözlə, böyük liderin həyatı çoxcildlik bir kitabdır, desək, yanılmarıq. Onun fəaliyyəti bütün sahələri əhatə edirdi. Siyasət kimi ağır, gərgin bir sahədə liderlik zirvəsinə ucalmaq çox çətin və məşəqqətli yol olsa da, Heydər Əliyev mətinliyi, əzmkarlığı sayəsində o da fəth olunub. Hər il bura gəlirik, ulu öndəri ziyarət edirik. Həmişə gələcəyik. Onun xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

Özümüz də ulu öndərin məzarını ziyarət etdikdən sonra sağollaşıb fotomüxbirimizlə redaksiyaya geri dönürük. Dahi şəxsiyyəti ən isti duyğularla yad edirik. Qoy elə bu qeydlərimiz də ulu öndərin ölməz ruhuna söylənən dualardan olsun.

***Anar TURAN,***
***Elşən AĞALAR (foto),***
***"Xalq qəzeti"***